UNİKAL



# Məhəmmədin şəhidlik zirvəsi

***Məhəmməd Cavanşır oğlu Babazadə İkinci Qarabağ müharibəsində Vətənin qeyrətini hər şeydən üstün tutaraq onun yolunda şəhid olmaqla 25 yaşında adını qəhrəmanlıq salnaməsinə yazdırdı. Astaranın Marzəsə kəndində dünyaya gəlmiş bu qəlbi sevdalı igid doğma Azərbaycanın hər qarşı torpağına, daşına ürəkdən bağlanmışdı. Odur ki, erməni dığaların xəyanətkar əməlləri ilə heç cür barışa bilmirdi. Yeniyetmə Məhəmmədin bütün arzuların zirvəsində yalnız düşmən tapdağında qalan torpaqların azad edilməsi dururdu. 2013-cü ildə yağıdan qisas almaq üçün ordu sıralarına yola düşür.***

Qəlbində ilahi bir sevgi Məhəmməd cəbhə bölgəsində Vətəninə, xalqına, dövlətinə ləyaqətlə xidmət edir. Təlimlərdə, verilən tapşırıqları sözsüz yerinə yetirməsində həmişə əsgər, zabit heyəti qarşısında özünü doğruldur. Hətta bir-neçə dəfə düşmənlə üz-üzə gələn əsgər onların layiqli cəzasını verə bilir. Adına layiq oğul olaraq qorxmazlığı, cəsurluğu, ən əsası torpağına, Vətəninə sədaqəti nümunə olur. Məhəmməd əsgərlik həyatını üzüağ başa vursa da, hələ düşməndən alacağı öcü var idi. Buna çatmaq üçün ömrünü hərbiyə bağlayır. Və kiçik çavuş kimi canına yağı dadanmış ucadan-uca bildiyi, müqəddəsliyinə tapındığı yurdunun qisas gününü gözləyir...

Bəli, İkinci Qarabağ müharibəsi başlanan günü fədakarlıqla vuruşub düşmənə ən amansız zərbələr vuran Vətənin qeyrətli oğullardan bir də Məhəmməd olur. Məhz qələbəmizə açılan yol belə başlanır. Pərən-pərən olmuş dığalar itki verə-verə qaçmağa üz qoyurlar. Füzuli rayonunda düşmən qüvvələrini tamam darmadağın etməkdə Məhəmməd xüsusi qəhrəmanlıq göstərir. Həmişə qaynar nöqtələrə can atan igid son nəfəsdə də " Təki Vətən yaşasın", - deyib əbədiyyət adlı dünyasına qovuşur. Qan töküb onu Vətən edən torpağın sinəsinə baş qoyan Məhəmməd bir millətin qüdrətini bildirən əbədi varlığa çevrilir.

Məhəmməd Babazadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və digər medallarla təltif olunub.

***Zəfər Orucoğlu, AJB üzvü***